# Şəhid pilot polkovnik-leytenant Rəşad Atakişiyevin anım mərasimi keçirildi



***Azərbaycan Hərb Tarixi Muzeyində şəhid pilot polkovnik-leytenant Rəşad Atakişiyevin anım tədbiri keçirildi. Mərasimdə Müdafiə Nazirliyinin hərbi qulluqçuları, respublikanın mədəniyyət və incəsənət nümayəndələri, o cümlədən şəhidin xidmət yoldaşları, ailə üzvləri, kütləvi informasiya vasitələrinin əməkdaşları və digər qonaqlar iştirak edirdilər.***




Əvvəlcə mərasimdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Ehtiyatda olan polkovnik Əzizağa Qənizadə tədbiri açıq elan edərək bildirdi ki, bu gün hərbi təyyarəçi polkovnik-leytenant Rəşad Atakişiyevin xatirəsini yad etmək üçün toplaşmışıq. "İki il bundan öncə gecə təlimləri zamanı Rəşadın idarə etdiyi MİQ-29 döyüş təyyarəsinin qəzaya uğraması nəticəsində pilotumuz həlak oldu. Cəsur təyyarəçimizin həlak olması xəbəri o zaman Vətəni ni sevən hər bir Azərbaycan vətəndaşının qəlbini sızlatdı."

Muzeyin rəisi onu da vurğuladı ki, polkovnik-leytenant Rəşad Atakişiyev Azərbaycan Ordusunda xidmət etdiyi müddət ərzində peşəkar, nümunəvi, vətənpərvər zabit kimi tanınıb və xidmətləri həmişə yüksək qiymətləndirilib. Onun həyatı və xidmət yolu təkcə hərbçilər üçün deyil, həm də Azərbaycan gəncliyi üçün örnək və nümunədir.

Şəhidin həyat yoldaşı Könül Atakişiyeva da şəhidlə bağlı xatirələrini tədbir iştirakçıları ilə paylaşdı. "Rəşad fəxr ediləsi bir insan idi. Onun peşəkarlığı, sənətinə olan sevgisi Vətəninə olan sonsuz bağlılığından irəli gəlirdi. Rəşad çox vətənpərvər, milli-mənəvi dəyərlərimizə sadiq bir zabit idi".

Professor Qabil Hüseynli bildirdi ki, Rəşad Atakişiyev kimi vətənpərvər, qayğıkeş insanın bu həyatı tərk etməsi onun üçün ağır itkidir. "Rəşad mənim üçün ideal hərbçi obrazına uyğun olan bir şəxs idi. O bunu öz savadı, nizam-intizamı və tərbiyəsi ilə göstərərdi".

Professor Q.Hüseynli çıxışının sonunda Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə ailəsinə göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlığını bildirdi.

Anım mərasimində Rəşad Atakişiyevin xidmət yoldaşları - polkovnik-leytenant Vüsal Əliyev, mayor Hüseyn Babaşov, mayor Mahir Babayev onunla bağlı xatirələrindən söhbət açdılar.

Mərasim polkovnik-leytenant Rəşad Atakişiyevin xatirəsinə həsr olunmuş "Sonuncu uçuş" adlı sənədli filmin nümayişi ilə davam etdi. Mərasimdə xalq artisti Fidan Hacıyevanın ifasında Rəşad Atakişiyevin xatirəsinə həsr olunmuş "Yolun düşsə, bu dünyaya bir də gəl" mahnısı səsləndi. Qeyd edildi ki, mahnının sözləri və musiqisi bəstəkar Aytən Oqtayqızına məxsusdur.

Şəhid pilota həsr olunmuş mərasim bədii hissənin təqdimatı və şəhidlə bağlı təşkil olunan sərginin nümayişi ilə sona çatdı.

**Elvin VƏTƏNDUST**
**kursant**

Azərbaycan ordusu.- 2021.- 28 iyul.- S.2.